**AZƏRBAYCAN RESPUBLİKASININ**

**NAZİRLƏR KABİNETİ**

**QƏRAR**

**№ 60**

**Bakı şəhəri, 25 aprel 2011-ci il**

**"Azərbaycan Respublikasının ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 31 yanvar tarixli 11 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin dördüncü abzasına əsasən və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikasının ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 31 yanvar tarixli 11 nömrəli qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 1, maddə 55, № 4, maddə 378, № 10, maddə 980; 2006-cı il, № 2, maddə 180, № 4, maddə 367, № 7, maddə 652; 2007-ci il, № 6, maddə 700, № 7, maddə 743, №12, maddə 1355; 2008-ci il, № 4, maddə 325, № 7, maddələr 672, 687, № 11 maddə 1036; 2009-cu il, № 1, maddə 25, № 4, maddə 291, № 9, maddələr 742, 744, № 12, maddə 1071; 2010-cu il, № 4, maddə 356, № 7, maddə 706, № 12, maddələr 1113, 1114; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 yanvar tarixli 17 nömrəli qərarı) əlavədə - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 dekabr tarixli 220 nömrəli qərarı ilə təsdiq edilmiş mətndə "Azərbaycan Respublikasının ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan digər malların siyahısı"na aşağıdakı sətirlər əlavə edilsin:

1.1. **"Qrup 38-dən"** sonra:

| **Qrup 40-dan** | |
|---|---|
| 4011 30 000 0 | Aviasiyada istifadə üçün təzə pnevmatik rezin şinlər |
| 4012 13 000 0 | Aviasiyada istifadə üçün bərpa edilmiş pnevmatik rezin şinlər |

1.2. **"Qrup 49-dan"** sonra:

| **Qrup 84-dən** | |
|---|---|
| 8407 10 000 | Qığılcımla alışan daxiliyanma, dövri və irəli-geri hərəkət edən porşen ilə aviasiya mühərrikləri |
| 8408 90 470 1 | Gücü 50 kVt-dan çox, lakin 100 kVt-dan çox olmayan sıxılmadan alovlanan |

| | |
|---|---|
| | porşenli daxiliyanma (dizellər və yarımdizellər), təzə, mülki aviasiya üçün mühərriklər |
| 8409 10 000 0 | 8407 və 8408 mal mövqelərinin aviasiya mühərrikləri üçün hissələr |
| 8411 11 000 0 | Turboreaktiv mühərriklər |
| 8411 12 | Turboreaktiv mühərriklər |
| 8411 21 000 0 | Turbovintli mühərriklər |
| 8411 22 | Turbovintli mühərriklər |
| 8412 10 000 0 | Reaktiv mühərriklər |
| 8412 90 200 0 | Reaktiv mühərriklərin hissələri |

1.3. **"Qrup 87-dən"** sonra:

| **Qrup 88-dən** | |
|---|---|
| 8802 11 000 0 | Boş təchiz olunmuş aparatın kütləsi 2000 kq-dan çox olmayan vertolyotlar |
| 8802 12 000 0 | Boş təchiz olunmuş aparatın kütləsi 2000 kq-dan çox olan vertolyotlar |
| 8802 20 000 0 | Boş təchiz olunmuş aparatın kütləsi 2000 kq-dan çox olmayan təyyarələr və digər uçan aparatlar |
| 8802 30 000 0 | Boş təchiz olunmuş aparatın kütləsi 2000 kq-dan çox, lakin 15000 kq-dan çox olmayan təyyarələr və digər uçan aparatlar |
| 8802 40 000 0 | Boş təchiz olunmuş aparatın kütləsi 15000 kq-dan çox olan təyyarələr və digər uçan aparatlar |
| 8803 10 000 0 | Hava və aparıcı vintlər və onların hissələri |
| 8803 20 000 0 | Şassilər və onların hissələri |
| 8803 30 000 0 | Təyyarə və vertolyotların digər hissələri |
| 8805 29 000 0 | Uçuş heyəti üçün yerüstü trenajorlar və onların hissələri |

1.4. **"Qrup 93-dən"** sonra:

| **Qrup 94-dən** | |
|---|---|
| 9401 10 000 0 | Hava nəqliyyatı vasitələrində istifadə olunan oturacaqlar kimi oturacaqlar |
| 9401 90 100 0 | Uçan aparatlarda istifadə olunan oturacaqlara bənzər oturacaqların hissələri |

2. Bu qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**